İSSN-0207-4710
2010-cu il

# GÖYƏRÇİN

1





# RAFİQ YUSİFOĞLU - 60

***Əziz balalar siz yəqin ki, «Göyərçin» jurnalının baş redaktoru sevimli şairimiz Rafiq Yusifoğlunu yaxşı tanıyırsınız, onun bir-birindən gözəl şeirlərini əzbərdən bilirsiniz. Bu da təsadüfi deyildir. İlk dərsliyiniz olan «Ana dili» kitabının aparıcı müəllifi Rafiq Yusifoğludur. Həmin kitabda Rafiq müəllimin 30-a yaxın şeiri, hekayəsi, nağılı var. Başqa dərsliklərdə, oxu kitabında da Rafiq müəllimin əsərləri çoxdur.***

***Rafiq Yusifoğlu bütün həyatını uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafına həsr edib. Elə buna görə də Prezdentimizin fərmanı ilə ona Əməkdar Mədəniyyət işçisi fəxri adı verilib.***

***Rafiq müəllim həm də alimdir, filologiya elmləri doktoru, professordur. Onun 47 kitabı çap olunub. Neçə-neçə kitabı nəşrə hazırlanır.***

***Görkəmli uşaq şairimiz Rafiq Yusifoğlunu 60 illik yubileyi münasibəti ilə təbrik edir, ona can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.***

***«Göyərçin» jurnalının yaradıcı kollektivi.***



## ANAM HAMIDAN GÖZƏLDİ

Hər gülün öz təravəti,
Hər çiçəyin öz ətri var.
Mənim mehriban anamın
Nəfəsində yaz ətri var.

O güləndə qəlbim gülür,
Artır yaşamaq həvəsim.
Gəz dünyanı qarış-qarış,
Anamın yoxdur əvəzi...

Ürəyi safdır, təmizdir,
Bulaq kimi durudur o,
Evimizin yaraşığı,
Gözümüzün nurudur o.

O, bizə layla çalanda
Adamın yuxusu gəlir.
Ana əli dəyən yerdən
Gül-çiçək qoxusu gəlir.

Yanaqları elə bil ki,
Təzə açılan çiçəkdi.
Anam hamıdan gözəldi,
Anam hamıdan qəşəngdi...